

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qiblәgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 35 (23.677)

20 fevral 2021-ci il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


**Banklar cəmiyyətin sosial-iqtisadi inkişafında mühüm xüsusiyyətləri ilə xarakterizə olunur. Təkmil bank sisteminin və düzgün bank siyasətinin mövcud olduğu ölkələrdə hərtərəfli iqtisadi, sosial və mədəni inkişafın şahidi ola bilərik. Hazırda iqtisadi sistemin elə bir sahəsi yoxdur ki, bankların imkanlarından faydalanmasın. Bu gün aqrar təsərrüfatdan sənayeyə, təhsildən səhiyyəyə, nəqliyyatdan sosial fəaliyyətin digər sahələrinə müxtəlif subyektlər, ən kiçik həcmdə olsa belə, banklardan istifadə edirlər. Banklar həm də sığorta, məsləhət-xidmət işlərində, broker-diler fəaliyyətində, maliyyə bazarlarına çıxışın əldə olunmasında, daşınmaz əmlak, texnologiya bazarında saysız-hesabsız xidmətləri həyata keçirirlər.**

## Muxtar respublika iqtisadiyyatında bankların rolu artır

Naxçıvan Muxtar Respublikasında da bank sistemi regionun iqtisadi və sosial həyatında böyük rola malikdir. Zaman keçdikcə bankların göstərdikləri xidmətlərin və məhsulların sayında və növündə ciddi dəyişikliklər baş verib. Hazırkı dövrdə isə bankların ən böyük xidmətlərindən biri muxtar respublika iqtisadiyyatının və ayrı-ayrı sahələrin inkişafına yönəldilən vəsaitlərdir. Kredit qoyuluşu fəaliyyətin əsas hissəsini təşkil etməklə, banklar həm öz imkanlarını genişləndirir, mənfəətini artırır, həm də müxtəlif sahələrin inkişafına töhfə verirlər.

Statistikaya görə, Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən banklar və kredit təşkilatları tərəfindən 1 yanvar 2021-ci il tarixə muxtar respublikanın iqtisadiyyatına yönəldilən kredit qoyuluşu 212 milyon 399 min manat, o cümlədən qısamüddətli kredit qoyuluşu 7 milyon 934 min manat, uzunmüddətli kredit qoyuluşu isə 204 milyon 465 min manat təşkil edir. Kredit qoyuluşu, əsasən, Dövlət proqramlarının icrasına, real sektorun, kiçik və orta sahibkarlığın inkişafına yönəldilib. Bank və kredit təşkilatları tərəfindən 2020-ci ilin yanvar-dekabr ayları ərzində 179 milyon 473 min manat kredit verilib ki, bunun da 18 milyon 893 min manatını qısamüddətli, 160 milyon 580 min manatını isə uzunmüddətli kreditlər təşkil edir. Verilmiş kreditlərin 13 milyon 357 min manatı kənd təsərrüfatı, 18 milyon 561 min manatı sənaye, 562 min manatı tikinti, 4 milyon 397 min manatı kommersiya, 1 milyon 112 min manatı nəqliyyat, rabitə və informasiya, 3 milyon 571 min manatı daşınmaz əmlakla əlaqədar ipoteka kreditlərinin verilməsinə, 922 min manatı səhiyyə və sosial xidmət sahəsinə, 136 milyon 991 min manatı isə digər kommunal, sosial və istehlak kreditlərinin verilməsi kimi sahələrə yönəldilib. Həmçinin kredit təşkilatları tərəfindən 2020-ci il ərzində 186 fiziki şəxsə 237 ədəd olmaqla, 5 milyon 97 min manat dəyərində lizinqə verilmiş kənd təsərrüfatı texnikası üzrə lizinq xidməti göstərilib.



Bankların və qeyri-bank kredit təşkilatlarının muxtar respublika iqtisadiyyatında sosial-iqtisadi vəziyyətin yaxşılaşdırılmasında rolu saymaqla bitməz. Əmanət və depozitlər üzrə xidmətlər, hüquqi və fiziki müştərilərin bank hesablarının açılması, bankomatlar və POS-terminalların quraşdırılması, ödəniş kartlarının paylanması, mübadilə məntəqələrinin açılması və digər məhsul və xidmətlərin təqdim edilməsi də bankların səmərəli fəaliyyətləri nəticəsində mümkün olub. Hazırda bankların regional şəbəkəsi və maliyyə xidmətləri daha da genişləndirilir. Bu gün müştərilərə internet bank, POS-terminal xidmətlərinin göstərilməsi təklif olunur. Pos-terminalların zaman keçdikcə geniş yayılmasının əsas səbəbləri kimi nağdsız hesablaşma sistemlərindən istifadənin genişləndirilməsi, əhalinin və şirkətlərin bu sistemlərə cəlb olunması, informasiya sistemlərinin təkmilləşməsi, ticarət və digər xidmət obyektlərində hesablaşmaların ödəniş kartları ilə aparılması və sair amilləri misal göstərə bilərik. Qeyd edək ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müvafiq sərəncamı ilə “2019-2022-ci illərdə Naxçıvan Muxtar Respublikasında rəqəmsal ödəniş xidmətlərinin tətbiqinin və nağdsız hesablaşmaların genişləndirilməsi üzrə Proqram” təsdiq olunub. Bu sahədə görülən işlərin nəticəsi olaraq muxtar respublikada elektron ödəniş xidmətləri inkişaf edib, nağd ödənişlərin sayı xeyli azalıb. POS-termialların sayına gəldikdə 1 yanvar 2021-ci il tarixə 690-ı Naxçıvan şəhərində, 720-si isə rayon və kənd mərkəzlərində olmaqla, 1410 ədəd təşkil edib. Bu rəqəm 2011-ci ildə 76-ya bərabər idi. Ötən il POS-terminallar və digər ödəniş vasitələri ilə aparılan nağdsız əməliyyatların həcmi 89 milyon 399 min manat olub və bir il ondan əvvəlki dövrlə müqayisədə 43 milyon 848 min manat artıb. Aparılan nağdsız ödənişlərin 31 milyon 542 min manatı POS-terminallar, 57 milyon 857 min manatı isə internet və digər ödəniş vasitələri ilə həyata keçirilib. Həmçinin 1 yanvar 2021-ci il tarixə elektron ödəniş kartı alanların ümumi sayı 265 min 583 ədəd təşkil edib.

Müasir dövrün inkişafını bank fəaliyyəti olmadan düşünmək mümkün deyil. Naxçıvan Muxtar Respublikasında da bankların fəaliyyəti üçün yaradılmış hərtərəfli şərait onların cəmiyyət həyatına böyük töhfə verməsinə geniş imkanlar açır.

**Eltun İBRAHİMOV**
***iqtisad üzrə fəlsəfə doktoru***

## Elmi-Texniki Şuranın iclası olub

*Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin Elmi-Texniki Şurasının iclası keçirilib. İclasda pomidor və xiyar bitkilərinin istixana şəraitində yetişdirilmə texnologiyası, bitkiçilikdə xəstəlik və zərərvericilərə qarşı intensiv mübarizə üsulları mövzularında söhbət açılıb, qarşılıqlı fikir mübadiləsi aparılıb.*



Kənd Təsərrüfatı naziri, Elmi-Texniki Şuranın sədri Bəhruz Bayramov bildirib ki, muxtar respublikamızda kənd təsərrüfatı məhsullarının istehsalı, əhalinin ərzaqla təminatı artan templə inkişaf etdirilir, daxili bazar qorunur. Bu baxımdan kənd təsərrüfatına yararlı torpaqlardan düzgün istifadə edilməsi, mütərəqqi metodların tətbiqi mühüm əhəmiyyət kəsb edir.

Akademik Həsən Əliyev adına “Araz” Elm-İstehsalat Birliyinin elmi katibi Rəşid Novruzov çıxışında pomidor və xiyar bitkilərinin istixana şəraitində yetişdirilmə texnologiyasından danışıb. Bildirib ki, bazar iqtisadiyyatı şəraitində muxtar respublikamızda şüşə və pərdə örtüklü istixanaların sayı xeyli artıb. Mütəxəssis istixanaların hazırlanması, müxtəlif tərəvəz əkinlərinin keçirilmə müddəti, bitkilərin becərmə aqrotexnikası, toxumların seçilməsi barədə tədbir iştirakçılarını məlumatlandırıb.

Nazirliyin Toxumçuluq və Bitkilərin Mühafizəsi İdarəsinin baş laborantı Yeganə Quliyeva keyfiyyətli toxum istehsalı və onların məhsuldarlığa təsirindən danışıb. O bu məqsədlə tədbir iştirakçılarına əyani olaraq müasir cihazların iş funksiyaları barədə məlumat verib.

İdarənin şöbə müdiri Kərəm Rəhimov isə bitkilərin xəstəlik və ziyanvericilərə qarşı intensiv mübarizə üsullarından danışıb.

Sonda iştirakçıları maraqlandıran suallara aydınlıq gətirilib.

***Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin mətbuat xidməti***

## Sahibkarlığa qayğı uğurlu inkişafın formulu, dayanıqlı iqtisadiyyatın təminatçısıdır

***Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafı əvvəlki illərdə olduğu kimi, 2020-ci ildə də əldə olunmuş uğurlarla yadda qalıb. Belə ki, ötən il makroiqtisadi sabitliyin qorunması, innovativ əsaslı iqtisadiyyatın inkişafının təmin edilməsi, özəl sektorun stimullaşdırılması, yüksək əlavə dəyər yaradan və ixraca yönələn məhsul istehsalının genişləndirilməsi muxtar respublika iqtisadiyyatının dinamik inkişafını təmin edib. İstər sənaye, istərsə də kənd təsərrüfatı və xidmət sahələrinə yatırılan investisiyalar öz nəticəsini verib.***

Ötən il sahibkarlıq subyektləri üzrə 772, ümumilikdə isə 955 yeni iş yerinin yaradılmasına imkan verən 169 istehsal və xidmət sahəsi istifadəyə verilib ki, bu layihələrin də 153-ü dövlət tərəfindən göstərilən maliyyə dəstəyi, 16-sı isə özəl investisiya hesabına olub. 2020-ci ildə muxtar respublikada sahibkarlara 37 milyon 676 min manat kredit verilib. Bu kreditlərin yönləndirildiyi istiqamətlərə nəzər salsaq, görərik ki, bunun 16 milyon 860 min manatı yeni istehsal sahələrinin yaradılmasına və genişləndirilməsinə, 20 milyon 816 min manatı isə fərdi sahibkarlığın inkişafına ayrılıb. Nəticədə, yerli məhsulların istehsal həcminin ildən-ilə artması daxili bazarın keyfiyyətli məhsullarla təmin olunması ilə yanaşı, ixrac amilini də ön sıraya çıxarıb. Xüsusilə ötən ilin muxtar respublikada “İxrac ili” elan olunması iqtisadi sahədə qarşıya qoyulmuş məqsədlərə doğru daha geniş imkanların açılmasını təmin edib. Statistikaya görə, 2020-ci ildə muxtar respublikanın xarici ticarət dövriyyəsi 510 milyon 547 min ABŞ dolları təşkil edib ki, bunun da 428 milyon 520 min dollarını ixrac, 82 milyon 27 min ABŞ dollarını isə idxal təşkil edib, 346 milyon 493 min ABŞ dolları dəyərində müsbət saldo yaranıb. Təsadüfi deyil ki, ötən il ixrac potensiallı müəssisələrdə istehsal edilən məhsullar 12-dən çox ölkəyə ixrac olunub.

Bütün bunları sadalamaqda məqsədimiz odur ki, 2020-ci il ölkəmiz, eləcə də bütün dünya üçün gözlənilməz dəyişikliklərlə müşahidə olunsa da, iqtisadi sabitliyin qorunub saxlanılması hər bir ölkədən və ya regiondan müəyyən dayanıqlılıq tələb edirdi. Əldə olunmuş uğurlu nəticələr onu göstərir ki, muxtar respublika iqtisadiyyatı bəhs olunan dövrü uğurla başa vurub. Halbuki 2020-ci ilin iqtisadi durumu bir sıra ölkələrdə müxtəlif istehsal müəssisələrinin bağlanmasına, işçilərin qismən və ya kütləvi şəkildə ixtisarlarına səbəb olmuşdu. İqtisadi dayanıqlılığın səbəbi ölkəmizdə, eləcə də muxtar respublikamızda bu cür vəziyyətlərdə işçi ixtisarlarına gedilməməsi üçün dövlət tərəfindən müvafiq maliyyənin ayrılması, kiçik və orta sahibkarlıq subyektlərinin daim dəstəklənməsidir. Maraqlı nüanslardan biri də odur ki, istənilən böhran





vəziyyətlərində ən dayanıqlı olanlar kiçik sahibkarlıq subyektləridir. Çünki böyük müəssisələrdən fərqli olaraq kiçik və orta sahibkarlıq müəssisələrinin dövriyyəsi o qədər də yüksək olmur, çoxsaylı işçi kütləsi təşkil etmirlər, digər biznes-partnyorları qarşısında böyük öhdəliklərə malik olmurlar və sair. Bu sırada ailə təsərrüfatlarını, xüsusilə qeyd etmək lazımdır. Muxtar respublikamızda ailə təsərrüfatlarının inkişafına göstərilən hərtərəfli dövlət qayğısı onların sayının ildən-ilə daha da artmasına səbəb olur. İqtisadi dayanıqlılığın təmin olunmasına töhfə verən belə ailə təsərrüfatları ailə üzvlərinin məşğulluğu və iqtisadi tələbatlarını təmin etdiyindən bu cür vəziyyətlərdə onların dövlətə o qədər də ehtiyacı olmur. Nəticədə, dövlətin də işi yüngülləşir, ailə gəlirləri aşağı olan və ya məşğul olmayan əhali qruplarına ayrılan vəsaitləri digər istiqamətlərə yönəldir. Həm ailə təsərrüfatları, həm də kiçik sahibkarlıq subyektlərində çalışanlar mikrokollektivlərdə birləşdiyindən bu cür işçi qruplarını böhran vəziyyətlərindən çıxarmaq daha asan olur.

Yuxarıda deyilənlərlə bərabər, 2020-ci il sahibkarlarımız üçün müəyyən təcrübələr də ortaya qoydu. İlk növbədə, hər bir sahibkar bunu sınaqdan çıxardı ki, rəhbərlik etdiyi müəssisə fors-major vəziyyətlərdə necə işləməlidir. Sahibkarlarımız bunun da fərqinə vardı ki, hər bir istehsal olunan məhsul istehlakçıya daha yaxın olmalıdır. Məsələn, ötən il “Nəqşicahan Holdinq Şirkətlər Qrupu” tərəfindən onlayn market yaradıldı. Bunun mahiyyəti odur ki, müvafiq proqramı mobil telefonlara yükləyərək bütün supermarket məhsullarını onlayn olaraq sifariş verirsən və sifarişlər vaxt itkisinə yol verilmədən təhlükəsiz şəkildə mənzilbaşına çatdırılır. Və yaxud biz ötən il Naxçıvan şəhərində onlayn karqo (“Sürət karqo”, “Güvən karqo” və sair) xidmətlərinin fəaliyyətə başladığını və ya fəaliyyətlərinin genişləndiyini müşahidə etdik. Bu onu göstərir ki, təkcə pandemiya deyil, normal dövrlərdə də onlayn fəaliyyət getdikcə həyatımızın bir parçasına çevrilir və sahibkarlarımız da artıq bunun fərqindədirlər. Artıq klassik biznes təfəkkürü ilə gələcəyə baxmaq getdikcə daha məntiqsizləşir. Bütün bu deyilənlərdən belə nəticəyə gəlmək olar ki, müasir bizneslərin yaradılması və ya fəaliyyətləri ənənəvi formatdan yeniliklərə doğru hərəkət edir və buna qarşıdakı illərdə daha çox rast gələcəyik.

***P.S.*** *Qlobal araşdırmalar sübut edir ki, müasir dünyada ilk yenilikləri edən və onu cəmiyyətin istifadəsinə verən yeganə insanlar sahibkarlardır. İnternet, mobil telefonlar, geyim və aksesuarlar, avtomobil və müxtəlif texnologiyaları onlar bizə çatdırırlar. Elm adamlarının ideyaları isə o vaxt tətbiqi hesab olunur ki, həmin ideyalar onu reallığa çevirən sahibkarların düşüncələri ilə uzlaşsın, yəni cəmiyyət üçün faydalı olsun. Bəlkə də, buna görədir ki, Avropanın ən güclü iqtisadiyyatı olan Almaniyada sahibkarların adına küçələr var…*

✍ **Səbuhi HƏSƏNOV**

Dövlət proqramı icra olunur

# Arıçılığın inkişafı üçün geniş imkanlar yaradılıb

***Muxtar respublikamızın iqlim şəraiti, məhsuldar torpaq örtüyü bu ərazidə qədim zamanlardan bəri insanların arıçılıq təsərrüfatı ilə məşğul olmasına əlverişli şərait yaradıb. Həm bir çox xəstəliklərin müalicəsində möcüzəvi faydaları, həm də bu sahə ilə məşğul olanlar üçün mühüm gəlir mənbəyi olması arıçılığı daim diqqət cəlb edən fəaliyyət növlərindən birinə çevirmişdir. Naxçıvanda aqrar sektorun mühüm tərkib hissəsi kimi arıçılıqda məhsuldarlığın daha da yüksəldilməsi məqsədilə davamlı tədbirlər həyata keçirilməkdədir.***

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 18 noyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş “2017-2022-ci illərdə Naxçıvan Muxtar Respublikasında arıçılığın inkişafı üzrə Dövlət Proqramı”nda nəzərdə tutulan tədbirlərin ardıcıl olaraq həyata keçirilməsi bu sahənin yeni inkişaf mərhələsinə qədəm qoymasına səbəb olub. Dövlət proqramının “Giriş” hissəsində qeyd edildiyi kimi: ***“Muxtar respublikada arıçılığın inkişafı, eləcə də bu sahədə məhsuldarlığın yüksəldilməsi üçün davamlı tədbirlər görülür. Belə ki, arı ailələrinin və arıçılıq məhsullarının çeşidinin artırılması, arıçılıqda xəstəliklərə qarşı mübarizə tədbirlərinin gücləndirilməsi keyfiyyətli məhsul istehsalına və bazarın yerli istehsal hesabına təmin olunmasına şərait yaratmışdır”.***







Dövlət proqramında hər il bal festivalının keçirilməsi ilə bağlı nəzərdə tutulan tapşırığın icrası arıçılar üçün stimullaşdırıcı xarakter daşımaqla yanaşı, muxtar respublika sakinləri üçün müxtəlif çeşidlərdə arıçılıq məhsullarına əlçatanlığın asanlaşdırılmasına imkan yaradır. Tapşırığın icrası məqsədilə 2020-ci il sentyabrın 26-da muxtar respublikada beşinci “Arıçılıq məhsulları – bal festivalı” keçirilmişdir. Ənənəvi xarakterli sosial-iqtisadi tədbirlərin ünvanına çevrilmiş “Naxçıvanqala” Tarix-Memarlıq Muzey Kompleksində təşkil olunan festivalda Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri iştirak etmişdir. Festivala muxtar respublikanın şəhər və rayonlarında fəaliyyət göstərən 289 arıçı tərəfindən 14 tondan artıq süzmə, 2 tondan artıq şan bal, arı südü, mum, vərəmum, çiçək tozu və güləm çıxarılmışdır. Naxçıvan Dövlət Universiteti tərəfindən arıçılıq ləvazimatları, nəşr olunmuş ədəbiyyatlar və yeni istehsal texnologiyalarının sərgisi təşkil edilmiş, 10 adda buklet hazırlanaraq arıçı sahibkarlara paylanmışdır. İki gün davam edən festivalda “Ən yaxşı arıçılıq məhsulları – bal” nominasiyası üzrə müsabiqə təşkil edilmiş, qaliblərə hədiyyə və diplomlar təqdim olunmuşdur.

Arıçılığın inkişafını şərtləndirən ən mühüm vasitələrdən biri balyığma mənbələrinin çoxaldılmasıdır. Arı ailələrinin sayı artdıqca bal arılarının təbii yem mənbəyi kimi istifadə etdiyi nektarlı və şirəli bitkilərin çoxaldılması da mühüm zərurətə çevrilir. Dövlət proqramında yaşıllaşdırma işlərində balyığma mənbəyi hesab olunan ağac və kol əkinlərinin genişləndirilməsi ilə bağlı tapşırıq nəzərdə tutulmuşdur. 2020-ci ildə Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən 98 hektar ərazidə nektar və çiçək tozu ilə zəngin olan meşə və meyvə tingləri əkilmişdir. Həmçinin muxtar respublikanın şəhər və rayonlarında 2 min 29 hektar sahədə yonca, 25,4 hektar sahədə xaşa və eyni ölçüyə malik sahədə şənbəllə əkininin aparılması balyığma mənbələrinin artmasına şərait yaratmışdır.

Təbii yem mənbələrinin çoxaldılmasında nektar və çiçək tozu ilə zəngin bitkilərin əkilməsi ilə yanaşı, yeni balyığma mənbələrinin aşkar edilməsi də mühüm əhəmiyyət kəsb edən faktorlardandır. Proqramın icrasına uyğun olaraq 2020-ci ildə Şərur rayonunun Axura kəndinin yuxarı hissəsində yerləşən “Hadıqayıb” adlanan ərazidə, eləcə də rayonun Gümüşlü, Yuxarı Yaycı, Havuş, Şahbulaq, Günnüt, Ordubad rayonunun Biləv, Rumus, Parağaçay, Şahbuz rayonunun Gömür, Kükü, Keçili, Yuxarı Qışlaq kəndlərində və Batabat yaylağında nektar və çiçək tozu ilə zəngin olan balyığma mənbələri aşkar edilmişdir. Arıxanaların yerləşdiyi ərazilərdə balverən bitkilərin kökünün kəsilməsinin qarşısının alınması da diqqət mərkəzində saxlanmış, bu məqsədlə təşkil olunan maarifləndirmə tədbirləri davam etdirilmişdir. Ümumilikdə, 2020-ci ildə Dövlət proqramında nəzərdə tutulan tapşırıqların icrası məqsədilə 3 müşavirə, 13 görüş keçirilmiş, sahibkarlara 20 mövzunu əhatə edən 500 nüsxə buklet hazırlanaraq paylanmışdır.

Arıçılıqda məhsuldarlığa təsir göstərən amillər arasında arı xəstəlikləri əsaslı yer tutur. Vaxtında profilaktik tədbirlərin həyata keçirilməsi arı ailələrində baş verə biləcək xəstəliklərin və məhsuldarlığın aşağı düşməsinin qarşısını alır. Proqramın icrası istiqamətində həyata keçirilən laborator müayinələr arı ailələrində yayıla biləcək infeksion və parazitar xəstəliklərin gec olmadan aşkar edilməsinə və təyinatı üzrə tədbirlər görülməsinə şərait yaradır. Bu məqsədlə 2020-ci ildə Amerika və Avropa çürüməsi xəstəliklərinə görə arıxanalardan 14 min 558 nümunə götürülərək yoxlanmış, infeksion xəstəlik aşkar edilməmişdir. Eyni zamanda parazitar xəstəliklərdən olan varroatoz, akarapidoz, nozematoza görə müayinələr həyata keçirilmiş, xəstəliklərin müalicəsində istifadə olunan 7 adda dərman vasitəsi sahibkarlara paylanmışdır. Onu da qeyd etmək lazımdır ki, proqramın icrasına uyğun olaraq Culfa və Babək şəhərlərində, eləcə də Nehrəm qəsəbəsində heyvandarlıq – arıçılıq sahələri üzrə əczaxanaların işə başlaması arıçı sahibkarların yarana biləcək xəstəliklərlə mübarizədə fəaliyyət imkanlarını daha da artırmaqdadır.

Naxçıvanda arıçılıq məhsullarının istehsalına dövlət dəstəyi davamlı şəkildə həyata keçirilir. Muxtar respublikada sahibkarlara subsidiyaların verilməsi məqsədilə arı ailələrinin uçota alınması diqqətdə saxlanılır, yeni arıçılıq təsərrüfatları yaradılır, arı ailələrinin sığortalanması üçün mütəmadi olaraq maarifləndirici görüşlər keçirilir. İcrası davam edən müvafiq Dövlət proqramı isə görülən işlərin kompleks xarakter almasına şərait yaradır. Bu istiqamətdə 2020-ci ildə muxtar respublikada dövlət maliyyə dəstəyi hesabına 18 arıçılıq təsərrüfatının yaradılması və 2 arıçılıq təsərrüfatının genişləndirilməsi başa çatdırılmış, 6 arıçılıq təsərrüfatının yaradılması davam etdirilmişdir. Uçota alınmış arı ailələri üzrə 3 min 943 sahibkara 984 min manat həcmində subsidiyanın ödənilməsi arıçılığın inkişafına göstərilən dövlət qayğısının mühüm təzahürü kimi diqqəti cəlb edir. 2020-ci ildə arıçılıq təsərrüfatlarında istehsal olunan təbii bal məhsulundan 245, mum vərəqindən 1 halda nümunələr götürülərək Mərkəzi Qida Sınaq Laboratoriyasına təqdim edilmiş, keyfiyyət və təhlükəsizlik göstəricilərinin normativ-texniki sənədlərin tələblərinə uyğunluğu müəyyən olunmuşdur. Həmçinin bu dövrdə 2 arıçılıq məhsulunun sertifikatlaşdırılması, 226 arı ailəsinin sığortalanması təmin edilmişdir.

Muxtar respublikamızda xüsusi diqqət yetirilən məsələlərdən biri də arıçılıq üzrə mütəxəssislərin hazırlanması, arıçılıq təsərrüfatlarında elmi nailiyyətlərin və qabaqcıl təcrübənin tətbiqi barədə sahibkarların məlumatlandırılmasıdır. Bu məqsədlə Dövlət proqramında müəyyən edilmiş tapşırığın icrası 2020-ci ildə də davam etdirilmiş, “Arı ailələrinin qışlamaya hazırlanması”, “Arıçılıq və bu sahəyə göstərilən dövlət qayğısının bəhrələri” və “Vərəmum min bir dərdin dərmanıdır” adlı məqalələr hazırlanaraq dərc olunmuşdur. Eyni zamanda Naxçıvan Regional Peşə Tədris Mərkəzində və Şərur Texniki-Peşə və Sürücülük Məktəbində arıçılıq peşəsi üzrə təhsil alan müdavimlərə arıçılıqda arı ailələrinə qulluq qaydaları haqqında təlimlərin keçirilməsi davam etdirilmişdir.

“2017-2022-ci illərdə Naxçıvan Muxtar Respublikasında arıçılığın inkişafı üzrə Dövlət Proqramı”nın icrası istiqamətində görülən işlər və həyata keçirilən tədbirlər muxtar respublikamızda arı ailələrinin sayının artmasına şərait yaratmışdır. Naxçıvanda 1 yanvar 2021-ci il tarixə 99 min 935 arı ailəsi uçota alınmışdır ki, bu da ötən ilin eyni dövrü ilə müqayisədə 137 arı ailəsi çoxdur.

*Muxtar respublikada son illər ekoloji tarazlığın qorunması, təbiətin zənginləşdirilməsi, yaşıllıq sahələrinin genişləndirilməsi arıçılığın inkişafı üçün geniş imkanlar açmışdır. Bunun nəticəsidir ki, arıçılıqla məşğul olanların sayı ildən-ilə artır, əldə olunan məhsul, nəinki Naxçıvan, ölkə bazarlarına çıxarılır və böyük alıcı rəğbəti qazanır.*

**“Şərq qapısı”**

Ailə təsərrüfatlarımız

# Yerli partladılmış qarğıdalı istehsalına başlanılıb

***Ailə təsərrüfatı institutu Naxçıvan Muxtar Respublikasında geniş yayılmış fəaliyyət sahələrindən biridir. Artıq bir neçə ildir ki, muxtar respublikada ailə təsərrüfatlarının inkişafı istiqamətində sistemli tədbirlər həyata keçirilir, istehsalın genişləndirilməsi, əhali məşğulluğunun artırılması diqqət mərkəzində saxlanılır.***

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2017-ci il 22 noyabr və 2019-cu il 18 yanvar tarixli sərəncamları ilə “Naxçıvan Muxtar Respublikasında ailə təsərrüfatlarının inkişafı ilə bağlı” Tədbirlər planlarının təsdiq olunması, 2019-cu ilin muxtar respublikada “Ailə təsərrüfatları ili” elan edilməsi belə təsərrüfatların fəaliyyəti üçün geniş imkanlar açıb. Digər tərəfdən, onların fəaliyyətinin bir-biri ilə koordinasiya baxımından əlverişliliyini təmin etmək üçün Ailə Təsərrüfatları İctimai Birliyinin yaradılması, hər il “Ailə təsərrüfatı məhsulları” festivallarının keçirilməsi, dövlət dəstəyi nəticəsində ailə təsərrüfatları məhsullarının qablaşdırma və dizaynlarının tərtib edilməsi və sair bu fəaliyyət sahəsinə marağı daha da artırıb. Buna görədir ki, hər il muxtar respublikamızda yeni ailə təsərrüfatlarının yarandığının şahidi oluruq. Onlardan biri də bu yaxınlarda yeni fəaliyyətə başlamış, Naxçıvan şəhər sakini Anar Əzizova məxsus ailə təsərrüfatıdır.

Fevralın əvvəllərindən fəaliyyətə başlayan bu ailə təsərrüfatı partladılmış qarğıdalı – popkorn istehsalı ilə məşğuldur. Anar Əzizovdan belə bir istehsala marağının haradan qaynaqlandığını soruşduq.



Bildirdi ki, partladılmış qarğıdalını çoxları kimi o da uşaqlıqdan sevib. Elə indinin özündə də o, eləcə də ailə üzvləri tez-tez bu məhsula müraciət edirlər. Onun dediklərindən:

– Qarğıdalı bu gün məişətimizdə ən çox istifadə etdiyimiz kənd təsərrüfatı məhsuludur. Onun yağından, toxumundan, yaşıl kütləsindən geniş istifadə olunur. Tək elə qarğıdalı toxumlarından müxtəlif növdə yeyinti məhsulları hazırlanır. Popkorn isə onlar içərisində daha geniş yayılanıdır. Bunun da sevilən olmasının səbəbi odur ki, gəzintidə, eləcə də hər hansı bir idman oyunu və ya film izləyərkən, ya da digər asudə vaxtlarda ondan istifadə insanlar üçün sevimli məşğuliyyətdir. Günəbaxan tumlarından fərqli olaraq, ondan istifadə edərkən əlavə tullantılara ehtiyac yaranmır. Bu isə popkornun ən çox istifadə olunduğu açıq məkanların (küçə, park və sair ) çirklənməsinə də imkan vermir. Digər tərəfdən, qiymət baxımından müxtəlif çərəz çeşidlərindən ucuz olması da ondan istifadəni kütləviləşdirir. Ancaq burada diqqət edilməli məsələlərdən biri qarğıdalının, duz istisna olunmaqla, heç bir əlavə qatılmadan qovurulmasıdır. Ancaq, təəssüf ki, bunu xarici istehsalçılar haqqında demək olmur. Buna görə



də ailə üzvlərimizlə birgə qərar verdik ki, bu işə başlayaq, öz məhsulumuzu özümüz istehsal edək. Nəzərə alaq ki, son illərdə muxtar respublikamızda qarğıdalı əkinlərinə maraq çoxalıb. Bu isə o deməkdir ki, popkorn hazırlamaq üçün yerli məhsulumuz var. Beləliklə, ilk olaraq bu işi həyata keçirmək üçün kiçik bir avadanlıq aldıq. Şərur rayonundan isə bu növ qarğıdalı yetişdirən bir zəhmətkeş insanla tanış olduq və ilk məhsulu da ondan alıb istehsala başladıq.

– Bəs müvafiq dövlət qurumları tərəfindən sizə hansı köməkliklər olundu? – sualımıza isə müsahibim belə cavab verdi:

– Naxçıvan Şəhər İcra Hakimiyyəti, Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyi, Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi tərəfindən lazımi dəstək göstərildi. Xüsusilə məhsulun qablaşdırılması, onlar üçün müvafiq emblemlərin hazırlanması və digər istiqamətlərdə bizə köməkliklər olundu.

Müsahibimiz onu da deyir ki, bu gün artıq 40, 65 və 115 qram yüksəkkeyfiyyətli kağız qablaşdırmalarda popkornlar ticarət şəbəkələrinə paylanılır. Yerli məhsulun alıcılar tərəfindən razılıqla qarşılandığını deyən ailə təsərrüfatı başçısı bunu da vurğulayır ki, muxtar respublikamızda ailə təsərrüfatlarına göstərilən hərtərəfli dövlət qayğısı istehsal olunan məhsulların satışı üçün də geniş imkanlar açır. Belə ki, bu gün muxtar respublikanın bütün satış obyektlərində ailə təsərrüfatı məhsulları üçün xüsusi guşələr yaradılıb. Bu isə o deməkdir ki, istehsal olunan məhsulun gündəlik satışı üçün heç bir problem yoxdur. Ailə təsərrüfatlarının inkişaf etdirilməsi üçün yaradılmış bu cür şəraitə görə dövlətimizə minnətdarlığımızı bildiririk. Biz də bunun qarşılığında çalışacağıq ki, yerli və keyfiyyətli məhsul istehsalında öz sözümüzü deyək, daxili bazarın təmin olunmasına töhfəmizi verək.

**Səbuhi HƏSƏNOV**



Jurnalist araşdırması

# Təhsildə yeni metod: STEAM

*Bu gün müasir texnologiyalar bütün dünyada inkişafı, uğuru təmin edən əsas vasitələrdən biridir. Texnoloji mübarizə əsri kimi tanınan XXI əsr bütün sahələrdə inkişafı təmin edə biləcək kadr potensialı, hansı ki müasir texnologiyaların dilini bilən, yeni elmi yanaşmaları mənimsəyən, ixtiralar edən, əmək bazarında özünü doğruldan şəxslər axtarışındadır. Bu da müasir təhsil metodlarının tətbiqini ön plana çıxarır. Dünya təhsil sistemində özünə yer alan belə metodlardan biri də STEAM-dır. Qısa zamanda aktuallıq qazanan bu təhsil metodu peşəkar səriştələrə malik mütəxəssis hazırlığında mühüm istiqamət kəsb etməkdədir. Elmin və texnologiyaların öyrədilməsində ənənəvi yanaşmadan fərqli olaraq STEAM təhsili praktik məşğələlər vasitəsilə elmi, texniki biliklərin gündəlik həyatda tətbiqini, bir sözlə, XXI əsr bacarıqlarından istifadə olunmaqla yaradıcı öyrənməni təmin edir.*

### STEAM nədir və necə yaranıb?

STEAM təhsil məsləhətçisi Vivet Pitelon Sparkes “STEAM nədir?” kitabında göstərir ki, STEAM beş fəndən – Elm (Science), Texnologiya (Technology), Mühəndislik (Engineering), İncəsənət (Art) və Riyaziyyat (Math) ibarət olan və fənlər arasında keçidi təmin edən bir modeldir. Uşaqları XXI əsrə hazırlayan təhsil sisteminin mahiyyəti qısaca budur: düşün, gör, toxun, et. STEAM dərsləri zamanı uşaqlar birbiri ilə ünsiyyətdə olur, xəyal qurur, komanda şəklində istehsal etməyi, problemlərə fərqli həll yolları tapmağı öyrənirlər. STEAM-ın sonunda texnoloji bir məhsul ortaya çıxır.

STEAM ad olaraq yeni olsa da, təhsil sahəsində yeni bir yanaşma deyil. XX əsrin 80-ci illərində qabaqcıl ölkələrdə inteqrasiyalı təhsil tətbiq edilməyə başlandı. 2009-cu ildə ABŞ STEM təhsil formasını strategiya kimi qəbul edib bu sahəyə böyük investisiya qoydu. Vaxt keçdikcə bu modelin çatışmazlığı ortaya çıxdı və burada sənətə də yer verilməli olduğu anlaşıldı. Məsələn, Leonardo da Vinçi bir sənətkar olsa da, peşəsi mühəndis idi. Dahi alman fiziki Albert Eynşteyn mühəndislik və yaradıcılıq işində sənətin vacibliyini vurğulayırdı. Beləliklə, STEM modelinə sənət (Art) əlavə olunaraq inkişaf etdirildi. Hazırda bu model Almaniya, Belçika, İngiltərə, İsrail və Hollandiyada tətbiq edilib. ABŞ-da bu proqram uşaq bağçalarında 3 yaşından etibarən öyrədilir. Bundan əlavə, bir sıra ölkələrdə (ABŞ, Sinqapur, İsrail, Türkiyə və sair) xüsusi STEAM məktəbləri və mərkəzləri fəaliyyət göstərir.

### STEAM təhsil metodunun müsbət yönləri

STEAM yanaşmasının məqsədi aktiv, məhsuldar, tənqidi düşünməyi bacaran, bildiklərini ortaq bir istiqamətə yönəldən, məhsulu ilə ölkəsinin iqtisadiyyatına dəstək olan, bir sözlə, dünyaya fayda verə biləcək insanlar yetişdirməkdir. STEAM-ın müsbət tərəfləri olduqca çoxdur. Onun tədrisi düşünmə, əməkdaşlıq, ünsiyyət, yaradıcılıq və yenilikçilik, informasiya və kommunikasiya bacarıqlarını inkişaf etdirir. Bu bacarıqlar şagirdlərin mürəkkəb problemləri təhlil edə bilməsi, dəqiq cavabları olmayan sualları araşdırması, məlumat mənbələrini fərqli baxışlardan qiymətləndirməsi və dəlillərə əsaslanaraq müvafiq nəticələr çıxara bilməsinə yardımçı olur. Komandalar halında səmərəli işlə ortaq bir hədəfə çatmağa, uyğun informasiya və kommunikasiya texnologiyalarından istifadə edərək məhsul istehsal edə bilməyə, bir sözlə, hərtərəfli inkişafa kömək edir və şagirdləri gələcəkdə səmərəli insan resursu olaraq tutacaqları mövqelərə hazırlayır. Ekspertlərin fikrincə, STEAM ixtisasları üzrə iş yerlərinin sayı 2022-ci ilin sonlarına kimi 9 milyon artacaq. Elmin nüfuzunun və əhəmiyyətinin artdığı, davamlı inkişaf prinsipləri əsasında texnologiyaların mühüm əhəmiyyət kəsb etdiyi bir vaxtda STEAM təhsil metodunun tətbiqinin vacibliyi bir daha ön plana çıxır.

### STEAM Azərbaycanda

Xalqımızın ümummilli lideri Heydər Əliyevin ***“Təhsil millətin gələcəyidir”*** müdrik kəlamı bir daha göstərir ki, bütün dövrlərdə xalqların və dövlətlərin sürətli inkişaf yolu təhsildən keçir. Ulu öndərin siyasətini bütün sahələrdə uğurla davam etdirən Prezident cənab İlham Əliyev təhsilə “Azərbaycanın gələcəyini müəyyən edən prioritet sahə” kimi yüksək dəyər verir. Dövlət başçısının “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər” adlı 2021-ci il 2 fevral tarixli Sərəncamında qeyd edilir ki, dünyada artan rəqabətə davam gətirə bilmək üçün iqtisadiyyatın uzunmüddətli inkişafı müasir və güclü təhsilə arxalanmalıdır. Məhz təhsil vasitəsilə insan kapitalının milli sərvətdə iştirak payı davamlı şəkildə artırılmalıdır. Strateji dövrdə kompetensiya, sosial vərdişlər və bacarıqların harmoniyada inkişafına əsaslanan “ömürboyu təhsil”ə xüsusi önəm verilməlidir. Erkən və məktəbəqədər təhsilin əhatə dairəsi genişlənməli və mərhələlərlə müvafiq yaşda olan bütün uşaqları əhatə etməlidir. Cəmiyyətin inkişafının təminatçısı olan ümumi təhsilin gücləndirilməsi üçün təhsil sistemində gedən modernləşmə davam etdirilməli, məzmun islahatları dərinləşməli, inteqrativ tədris təcrübəsinin inkişafı diqqətdə saxlanılmalıdır. Bu əsasda ölkənin beynəlxalq qiymətləndirmələrdə (PISA, PIRLS, TIMSS, ICILS) mövqeyinin əhəmiyyətli dərəcədə yaxşılaşmasına nail olunmalıdır. Təhsil sistemi gənc nəsli gələcək rəqəmsal texnologiyalar



dövrünə hazırlamaq üçün onlara məktəb yaşından rəqəmsal səriştələrin aşılanmasına diqqət yetirməli, indikindən əsaslı şəkildə fərqlənən yeni bacarıqlar, ixtisaslar və peşələr verməlidir. İnsanların yüksəkkeyfiyyətli təhsil almaq imkanları genişləndirilməli, kadr hazırlığı əmək bazarının tələblərinə uyğunlaşmalıdır, peşə hazırlığı sisteminin inkişaf etdirilməsi tədbirləri çərçivəsində beynəlxalq sertifikatlara malik mütəxəssislər hazırlanmalıdır. Güclü təhsil hesabına yüksək peşə bacarıqlarına malik insan kapitalı yaratmaq üçün ali təhsil müəssisələrinin beynəlxalq səviyyədə keyfiyyət baxımından rəqabətədavamlığı təmin olunmalıdır...

Doğma Vətənimiz Azərbaycan yüksək texnologiyaları inkişaf etdirən ölkələrdən biri kimi bu texnologiyaların təhsil sahəsinə tətbiqinə, eləcə də dünyada qəbul edilmiş yeni təhsil metodlarının ölkəmizin təhsil sisteminə inteqrasiyasına böyük önəm verir. Bunun nəticəsidir ki, ötən tədris ilindən başlayaraq Azərbaycan Respublikası Təhsil Nazirliyi tərəfindən bir çox ümumi təhsil müəssisələrində STEAM layihəsinin tətbiqinə başlanılıb. Nazirliyin “STEAM Azerbaijan” layihəsi VI sinifdən başlayaraq məktəblərdə tədris olunur. Bu layihənin uğur qazanması üçün STEAM-ın tədrisinə mütəxəssislər cəlb olunur, müəllimlər üçün təlimlər təkmilləşdirilir, mövcud metodik vəsaitlərin məzmunu genişlənir. Bu da onu deməyə əsas verir ki, adıçəkilən layihə müstəqil düşünə bilən, karyera seçimini şüurlu şəkildə edən, gələcəkdə öz bacarıqlarını əmtəəyə, dəyərə çevirə bilən, sahibkarlıq ruhu olan gənclərin yetişdirilməsində mühüm rol oynayacaq.

Prezident cənab İlham Əliyevin: ***“Elə peşələr var ki, 5 ildən sonra sıradan çıxacaq, yeni peşələr meydana çıxacaq. Kadr potensialımız imkan verməlidir ki, dünyada gedən sənayeləşmə, Dördüncü Sənaye İnqilabı ilə bağlı proseslər daim Azərbaycanın inkişafını təmin etsin”*** müdrik fikirləri də bir daha təsdiq edir ki, STEAM təhsil sisteminin ölkəmizin iqtisadi inkişafına verəcəyi töhfələr böyük əhəmiyyət kəsb edir.

### STEAM Naxçıvanda

Naxçıvanda dövlət qayğısı hesabına təhsilin bütün pillələri üçün şərait yaradılıb, təhsil müəssisələrinin maddi-texniki bazası möhkəmləndirilib. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsinə dair əlavə tədbirlər və innovasiyaların dəstəklənməsi haqqında” 2019-cu il 3 aprel tarixli Sərəncamı təhsilin inkişafında yeni mərhələnin əsasını qoymaqla təhsil müəssisələrində yaradıcı düşüncə və inkişafa xidmət edən layihələrin hazırlanmasına və tətbiqinə geniş imkanlar açıb. Bunun nəticəsidir ki, muxtar respublikada təhsilin inkişafı, innovativ təhsil üsullarının tətbiqi istiqamətində “İnnovativ dərnəklər”, “Sabahın tədqiqatçıları”, “Sabahın müəllimi”, “İnteraktiv dərs”, “Nümunəvi dərs”, “Distant təhsil” layihələri tətbiq edilir. Dünya təhsil sistemində mütəxəssis hazırlığının mühüm istiqaməti kimi götürülən STEAM metodlarının Naxçıvan şəhərində tətbiqinə ötən ildən başlanılıb. Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat xidmətindən aldığımız məlumata əsasən deyə bilərik ki, 2020-2021-ci tədris ilindən etibarən isə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin tapşırığı ilə muxtar respublikanın ümumtəhsil məktəblərində STEAM təhsil metodunun tətbiqinə start verilib. Şərur rayonunun Qarabürc, Şəhriyar, Ordubad rayonunun Nüsnüs kənd tam orta məktəblərində, Culfa Rayon Texniki Yaradıcılıq Mərkəzinin nəzdində STEAM kabinələri yaradılıb, həmin kabinələr elektron lövhə, kompüter, 3D printer, mikrobit, arduino setləri və digər öyrədici STEAM qurğuları ilə təmin olunub. Görülən işlərin davamı olaraq STEAM metodları ilə bağlı xarici ədəbiyyatlar Azərbaycan dilinə tərcümə edilib, müvafiq tədris proqramları və müəllimlər üçün metodik vəsaitlər hazırlanıb. Müəllim hazırlığı istiqamətində müvafiq təlimlərin təşkili diqqətdə saxlanılıb. Təlimlər zamanı müəllimlərə STEAM metodologiyaları, Robotexnika, 3D CAD Modelləşdirmə və Çap, Proqramlaşdırma, mikrobit və arduino texnologiyaları, mühəndislik modulları ilə yanaşı, nəzərdə tutulan proqram əsasında STEAM tədrisi üçün istifadə olunan *www.tinkercad.com* səhifəsindən onlayn istifadə bacarıqları da mənimsədilir. Müəllimlər *www.tinkercad.com* səhifəsində müəllim və şagird qeydiyyatının aparılması, müxtəlif obyektlərin informasiya modellərinin yaradılması və 3D çap modulundan istifadə qaydaları haqqında geniş məlumatlar əldə edirlər. Təlimləri uğurla başa vuran müəllimlərə Təhsil Nazirliyi tərəfindən STEAM dərslərini aparmaq üçün sertifikat verilir. Gələcəkdə beynəlxalq təlimçilərin Naxçıvana



dəvət olunması, həmçinin fərqlənən müəllimlərin beynəlxalq təlimlərə cəlb edilməsi istiqamətində işlər görüləcək.

Təhsilə, onun inkişafına xüsusi əhəmiyyət verən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov təhsilin əhəmiyyətini vurğulayaraq deyib: ***“Təhsil elə səviyyədə olmalıdır ki, o, insanlara yeni texnologiyaları çevik mənimsəmək, əmək bazarında və şəxsi həyatda layiqli yer tutmaq, sağlam həyat tərzi, ətraf mühitə və cəmiyyətə gedən proseslərə münasibətdə düzgün mövqe seçmək imkanı yaratsın”.*** Təhsil sahəsində həyata keçirilən genişmiqyaslı tədbirləri nəzərə alaraq deyə bilərik ki, istedadlı uşaqların aşkarlanması və düzgün istiqamətdə yetişdirilməsində mühüm rol oynayan STEAM-ın diyarımızda tətbiqi gələcəyin peşəkar gənclərinin yetişməsinə öz töhfəsini verəcəkdir.

### STEAM-ın gələcəyi

Dünya dəyişir. Rəqəmsal texnologiyalar həyatımızın bir hissəsinə çevrilməklə təhsil sisteminə həm struktur, həm də güc dəyişikliyi gətirir. Görkəmli iqtisadçı alim Tomas Stevart deyir ki, nə təbii resurslar, nə istehsal edilən məhsulun sonsuz ehtiyatları, nə də ki, bank hesabları – bunlar şirkətin sərvətləri sayıla bilməz. Daim artmaqda olan informasiyalar əsrində hər hansı bir şirkətin sərvəti onun əldə etdiyi biliklər toplusu, bir sözlə, intellekt kapitalıdır. Bu gün bütün sahələrdə güclü intizam biliyinə, analitik, yaradıcı və tənqidi düşünmə bacarıqlarına sahib insanlar tələb olunur. Son illərdə təhsil sahəsində yeni trendlərdən biri sayılan STEAM-ın tətbiqi qloballaşan dünyada iqtisadi inkişafdan geri qalmamaq üçün vacib hesab edilir. Bu təhsil metodu üzrə ixtisaslaşmaq üçün istər orta, istərsə də ali təhsil məktəblərində STEAM mövzularına yaxşı yiyələnmək vacibdir. Çünki STEAM-ın təhsil alanlara qazandırdığı bilik və bacarıqların onların peşəkar inkişafına, gələcək həyatına təsiri qaçılmaz olacaq.

*İnanırıq ki, bugünkü STEAM bilikli şagirdlərimiz gələcəyin xüsusi qabiliyyət və istedada malik, yaradıcı, yenilikçi və təşəbbüskar şəxsiyyətləri kimi formalaşmaqla ölkəmizin inkişafına töhfə verəcəklər.*

**Güntac ŞAHMƏMMƏDLİ**

## Gənclər arasında ingilis dilində intellektual oyun təşkil olunub

*Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin aktzalında gənclər arasında ingilis dilində “Xəmsə” milli intellektual oyunu keçirilmişdir.*

Əvvəlcə Gənclər və İdman Nazirliyinin şöbə müdiri İlahə Haqverdiyeva çıxış edərək bildirmişdir ki, bu gün muxtar respublikada gənclərin asudə vaxtının səmərəli təşkil olunması məqsədilə bir sıra tədbirlər reallaşdırılır. İntellektual oyunların keçirilməsi də məhz gənclərin asudə vaxtının səmərəli təşkil olunması ilə yanaşı, onların dünyagörüşünü formalaşdırır, intellektual səviyyələrini yüksəldir. Bu gün də keçirilən oyunun məqsədi gənclərin xarici dil öyrənməyə marağının artırılması, intellektual fəaliyyətə cəlb edilməsi, müxtəlif xarici dillərdə intellektual oyunların kütləviliyinin təmin edilməsi olduğunu bildirmiş, iştirakçılara uğurlar arzulamışdır.



“Bəlli”, “Şərtli”, “Sirli”, “Fərdi” və “Xəmsə” raundlarından ibarət olan oyunda ən çox xal nominalı toplayan “Success” komandası qalib adını qazanaraq kubokun sahibi olmuşdur. Oyunda “Rivincita” komandası II yerə, “To run” və “Paradoks” komandaları isə III yerə çıxmışlar.

Qalib komandalara təşkilatçılar tərəfindən diplom, fəxri fərman və qiymətli hədiyyələr təqdim olunmuşdur. 20 nəfər gəncin iştirak etdiyi “Xəmsə” milli intellektual oyunu Gənclər və İdman Nazirliyinin, Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Heydər Əliyev adına Gənclər Birliyinin, “Gənclərin İntellektual İnkişaf Mərkəzi” İctimai Birliyinin və “Optimal Qrup” Məhdud Məsuliyyətli Cəmiyyətinin birgə təşkilatçılığı ilə keçirilmişdir.

Qeyd edək ki, komandalar nazirlik tərəfindən açılmış link vasitəsilə qeydiyyatdan keçərək oyunda iştirak etmək hüququ qazanmışlar.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

## Beynəlxalq Ana Dili Günü münasibətilə tədbirlər olub



21 fevral – Beynəlxalq Ana Dili Günü münasibətilə AMEA Naxçıvan Bölməsində "Dilimizin saflığının qorunması hər bir vətəndaşın borcudur" mövzusunda konfrans, Naxçıvan Dövlət və "Naxçıvan" universitetlərində, Naxçıvan Müəllimlər İnstitutunda elmi-nəzəri seminar və elmi konfranslar keçirilib.

Tədbirlərdəki çıxışlar zamanı 21 fevral tarixinin Beynəlxalq Ana Dili Günü kimi qəbul edilməsinin tarixi əsaslarından, Azərbaycan dilinin keçdiyi inkişaf yollarından, dilin xalq, millət üçün əhəmiyyətindən bəhs edilib. Məruzəçilər dahi şəxsiyyət Heydər Əliyevin hakimiyyətdə olduğu dövrlərdə dilimizə göstərdiyi qayğı, Azərbaycan dilinin inkişafı üçün atdığı addımlar, keçirdiyi siyasət diqqətə çatdırılıb.

Qeyd olunub ki, ulu öndər Heydər Əliyevin rəhbərliyi altında hazırlanmış müstəqil Azərbaycan Respublikası Konstitusiyasının 21-ci maddəsində dövlət dilinin Azərbaycan dili kimi təsbit edilməsi, o cümlədən 2002-ci il sentyabrın 30-da "Azərbaycan Respublikasında dövlət dili haqqında" Qanunun qəbul olunması ana dilimizin inkişafı istiqamətində atılan mühüm addımlardır.

Tədbirlərdə Azərbaycan dilinin inkişaf dövrlərindən bəhs edən slaydlar nümayiş olunub, ali təhsil ocaqlarının tələbələri ana dilimizə həsr olunmuş şeirləri bədii qiraət ediblər.

Naxçıvan Muxtar Respublikası Gənclər Fondunun təşkilatçılığı ilə "Ana dilimizin saflığının qorunmasında gənclərin rolu" mövzusunda keçirilən dəyirmi masada müzakirələr zamanı vurğulanıb ki, Naxçıvan Muxtar Respublikasında ən ali milli dəyərimiz olan dövlət dilimizin qorunub yaşadılmasına xüsusi diqqət yetirilir, istər danışıq, istərsə də yazı dilindən düzgün istifadə olunması, ana dilimizin daha da inkişaf etdirilməsi və möhkəmləndirilməsi, təbliğ olunması diqqət mərkəzində saxlanılır.

**Xəbərlər şöbəsi**

## Məktəblilər arasında ilk memarlıq-dizayn müsabiqəsi



Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin təşkilatçılığı ilə muxtar respublika məktəbliləri arasında memarlıq-dizayn müsabiqəsi təşkil olunub. Müsabiqənin keçirilməsində məqsəd mühəndislik bacarığına və kreativ düşüncəyə malik şagirdlərin ən son proqram təminatlarından istifadə etməklə müxtəlif layihə və ideyaları hazırlamalarına şərait yaratmaq, bu sahədə onların istedadını üzə çıxarmaqdan ibarət olub.

Tədbiri giriş sözü ilə açan Təhsil Nazirliyinin əməkdaşı Murad Babayev qeyd edib ki, dövlətimizin qayğısı nəticəsində 2019-cu ildən başlayaraq məktəbdənkənar təhsil müəssisələrində innovativ dərnəklərin yaradılması muxtar respublikada məktəbdənkənar təhsil müəssisələrinin fəaliyyət imkanlarının genişləndirilməsi işində həyata keçirilən növbəti uğurlu təhsil yeniliyidir. Müsabiqədə yeni yaradılan memarlıq-dizayn dərnəyində təhsil alan şagirdlər iştirak edir. Qeyd edilib ki, müsabiqənin şərtlərinə uyğun olaraq şagirdlər kompüterdə 3 saat müddətində ArchiCAD-üçölçülü dizayn proqramında memarlıq layihələrinin modellərini hazırlayacaqlar.

Müsabiqə zamanı şagirdlər hazırladıqları memarlıq layihələrinin plan-ölçüləri, perspektiv görünüşləri, fasad və interyer həllini kompüterdə uyğun miqyasda yerləşdiriblər.

Yekunda hər şagird hazırladığı layihəni münsiflər heyətinə təqdim edib. Şərtləri ödəyən və fərqlənən şagirdlər münsiflər heyəti tərəfindən innovasiya və kreativlik, uyğunluq və funksionallıq, proqram tələblərinin yerinə yetirilməsi və məlumatın təqdimatı kimi parametrlərə əsasən seçiliblər. Nəticələrə əsasən şagirdlərdən Kamal Qafarov I, Aysel İbrahimli və Bayram Tahirov II, Fərid Kazımov, Uğur Novruzov və Lətif Bayramzadə isə III yerə layiq görülüblər. Qaliblər diplom və hədiyyələrlə təltif olunublar.

***Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsi***

## Ağbulaqda təlim-treninq keçirilib



Şahbuz rayonunun Ağbulaq Kənd Turizm-İstirahət Bölgəsində yeni həkim ambulatoriyasının açılışında iştirak edən Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Səhiyyə Nazirliyinə Fövqəladə Hallar Nazirliyi ilə birlikdə dağ-xizək travmalarının müalicəsi üçün təlimlərin keçirilməsi barədə verdiyi tapşırığa uyğun olaraq fevralın 19-da həkim ambulatoriyasında dağ-xizək travmaları zamanı ilkin tibbi yardıma dair xilasedicilər və tibb işçilərinin iştirakı ilə təlim-treninq keçirilib.

Fövqəladə Hallar Nazirliyinin əməkdaşı Rəcəb Səfərov qeyd edib ki, muxtar respublikanın mühüm turizm bölgəsinə çevrilən Ağbulaq kəndində yeni istifadəyə verilən həkim ambulatoriyasında və təcili tibbi yardım avtomobilində dağ-xizək travmalarının qarşısının alınması üçün hər cür tibbi ləvazimat və avadanlıqlar mövcuddur.

Tədbirdə tibbi avadanlıqlardan istifadə qaydaları əyani izah edilib, ambulatoriyaya xilasedicilər tərəfindən gətirilən zərərçəkənə taktiki ilk tibbi yardım göstərilib.

Təlim daha sonra Ağbulaq Xizək Mərkəzində davam etdirilib. Xizəkdən və kanatdan istifadə zamanı təhlükəsizlik qaydalarının pozulması nəticəsində xəsarət alanlara ilk tibbi yardımın göstərilməsi, həkim ambulatoriyasına göndərilməsi ilə bağlı proseslər əyani izah edilib.

Təlim-treninqdə qanaxmanın, sınıqların növləri, buruntular vasitəsilə qanaxmanın dayandırılması, yaranın təmizlənməsi, sarğının, turnanın qoyulması, şinanın, tamponun tətbiq edilməsi mulyaj üzərində aparılıb, videogörüntülərlə müşayiət olunub, dinləyiciləri maraqlandıran suallar cavablandırılıb.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

*Xalq təqvimi*

## Etnoqrafik yaddaşımızda Boz ay



Ta qədimlərdən üzü bəri qış mövsümünü belə bölüblər dədə-babalarımız: başlayanda qırx gün Böyük çillə, ardınca iyirmi gün Kiçik çillə, sonunda da otuz gün Boz ay. Qış fəslinin son dönəmlərinə təsadüf edən Boz aya bəzi bölgələrimizdə alaçalpo da deyirlər. Yəqin ki, bu ifadə də yaz dumanlarının torpaq üzərinə enməsilə havaların tutqun olması anlamına gəlir. Boz ayın bir xüsusiyyəti də var ki, bilmirsən qışdır, yoxsa yaz? Hava kimi adamın ovqatı da çox kövrək, dəyişkən olur bu ayda. Gəlin görək tədqiqatçıların Boz ay haqqında fikirləri nələrdir?

Etnoqraf alimlər qeyd edirlər ki, mərasimlər sistemimizdə xüsusi yer tutan Boz ay xalqımızın keçmiş adət-ənənəsinə görə, Novruz bayramı gəlməzdən əvvəl olan dövrə verilən addır. Kiçik çillənin qurtardığı vaxtdan yazın ilk günündək – Novruza qədər davam edir və hərəsi bir həftə çəkməklə dörd çilləbeçəyə, yəni çərşənbəyə bölünür. El arasında bu müddət "boz çillə", "ala çillə", "alaçalpo", "ağlar-gülər ayı" adları ilə də tanınır. Tədqiqatçıların fikrincə, bu adların hər biri dəyişkən mənasına gəlir. Bu isə həmin müddətdə havanın buludlu, yağışlı, küləkli, günəşli keçməsi ilə əlaqədardır. El arasında "Çoban aldatdı" yağışı adlanan günəşli yağmurlar da bu ayda teztez görünür.

Xalq arasında belə bir deyim var ki, Boz ay bozara-bozara keçər. Elə bu deyim də ilin bu ayında havaların dəyişkənliyinə işarədir. Bununla bağlı bir rəvayətdə deyilir ki, qədim zamanlarda Göy Tanrı ili 12 aya bölüb. Bu vaxt hər aya 32, təkcə Boz aya isə 14 gün düşüb. Boz ay inciməsin deyə, hər ay ömründən bir gün bu aya verib. Lakin Boz ay yenə narazı qalıb. Bunu görən ayların bəzisi ömründən bir gün də götürüb Boz aya verib. Elə ona görə də ayların bəzisi 30, bəzisi isə 31 gündən ibarətdir. Mifə görə Boz ayda havaların belə dəyişkən olmasının bir səbəbi də digər aylardan da pay aldığına görədir.

Kiçik çillə ilə Novruz arasındakı bu ay qışdan yaza keçid dövrü olduğu üçün xalq arasında "bayram ayı" da adlandırılır. Novruzun müjdəçisi olan Boz ayda su, torpaq, yel, od çərşənbələri bu aya təsadüf edir. Elmi ədəbiyyatda çərşənbələrin dörd ünsürlə adlandırılmasının müasir dövrün ənənəsi olması, yəni bu adların sonradan qoyulması barədə zaman-zaman mübahisəli fikirlər də var. Tədqiqatçıların araşdırmalarına görə, qədimdən Azərbaycanın müxtəlif regionlarında çərşənbələrə fərqli adlar verilib. Tarix üzrə fəlsəfə doktoru, dosent Asəf Orucovun "Şərq qapısı" qəzetində dərc edilmiş "Boz ay qışdan yaza keçid dövrüdür" adlı məqaləsində qeyd olunur ki, qədim zamanlarda xalq yazın gəlişinin ilk əlamətini leyləyin qayıtması ilə bilərdi. Leyləklər, əsasən, Kiçik çillənin sonu, çilləbeçənin əvvəllərində qayıdırlar. Bundan sonra havalar bir neçə günlüyə soyuyur, soyuq küləklər əsir. Buna "leylək boranı" deyirlər. Xalq arasında belə bir inam var ki, gərək leyləyin yumurtasının üstünə qar yağa. Ümumən, leyləklər erkən qayıtdıqda öz köhnə yuvalarına dönürlər. Onlar Novruzu yuvalarında keçirirlər. Bir atalar sözündə isə deyilir: "Cəmrə havaya, leylək yuvaya". Deməli, leyləklər yuvalarına cəmrələrin olduğu dövrdə, yəni köhnə ildə dönürlər.

Xalq arasında "ağlayan-güləyən" ay kimi də tanınan Boz ayın dörd çərşənbəsi var. Novruz bayramından 4 həftə öncə xalqımız, xüsusilə də Naxçıvan bölgəsi bu çərşənbələri xüsusi təntənə ilə qeyd edir. Bunun da öz tarixi kökləri var. Xalq təqviminə görə, Novruz öncəsi çərşənbələrdən birincisi "Su çərşənbəsi" adlanır. Yəni bahara doğru çayların azacıq buz bağlayan yerləri əriyib çaylara tökülür. Torpaq yavaş-yavaş islanmağa başlayır. Çərşənbəyə hazırlıq mərhələsi olaraq, ilk növbədə, həyət-baca təmizlənir, evlər səliqə-sahmana salınır. Qızlar bulaqlardan sərin su gətirir, evin ətrafına çiləyir, üzlərini yuyurlar.

İkincisi "Torpaq çərşənbəsi"dir. Torpağı ana təbiət su ilə isladır, Günəşlə isidir. Ona görə də ilk yaz əkininə xışla-kotanla məhz torpaq çərşənbəsi günündə başlayırlar. Yaşlı qadınlar "Səməni, saxla məni, ildə göyərdərəm səni", – deyib buğda isladırlar. Məhz Boz ayda torpağı əkib-becərməyə hazırlayan yaz dumanları başlayır. Dumanların yumşaltdığı torpaq, tədricən, arata, şumlamağa hazırlanır. Ona görə də xalq arasında "qış dumanı qar gətirər, yaz dumanı bar" kimi bir deyim də var.

Boz ayın növbəti həftəsinə "tüstü qaytaran" həftə deyilir. Bu isə həmin müddətdə əsən küləklərin tüstü bacalarından tüstüləri təkrarən evin daxilinə qaytarması ilə əlaqədir.

Üçüncü "Yel çərşənbəsi"dir. Bu vaxt yel artıq azacıq oyanmış torpağı, təzəcə çıxmış yaza həsrət gülləri tərpədir, tumurcuqlanan ağacları yelləyir.

Dördüncüsü "Od çərşənbəsi" adlanır. Ona görə ki, bahara doğru Günəş yavaş-yavaş torpağı qızdırır, isidir, onu əkmək üçün hazırlayır. Od çərşənbəsində tonqallar qalayırlar. Hər ailə üzvünün adına bir şam yandırır, xonçalar düzəldirlər.

Folklorşünasların araşdırmalarında Novruza qədər keçirilən bayram və mərasimlərdə məhsul bolluğu diləyi başlıca cəhət sayılır. Ulu əcdadlarımızda belə bir inam var idi ki, nə qədər bolluğu arzulasan, onu çağırsan, o sənə daha tez yaxın düşər. Biz də ata-babalarımızın inamına əsaslanaraq yeni başladığımız bu ilin hər kəs üçün uğurlu və bol ruzili olmasını diləyirik.

**✍ Gülcamal TAHİROVA**

## Həmyerlimiz Beynəlxalq İntellektual Əməkdaşlıq Komitəsi İntellektual Liqasının həqiqi üzvü seçilib

AMEA Naxçıvan Bölməsi Təbii Ehtiyatlar İnstitutunun Hidrogeologiya və mineral sular laboratoriyasının rəhbəri, kimya üzrə fəlsəfə doktoru, dosent Fizzə Məmmədova beynəlxalq jurnallarda nəşr olunan məqalələrinin elmi əhəmiyyəti və əsərlərinə olunan istinadların çoxluğu nəzərə alınmaqla "Beynəlxalq İntellektual Əməkdaşlıq Komitəsi İntellektual Liqası"nın həqiqi üzvü seçilib.

Məlumat üçün qeyd edək ki, komitə 1922-ci ildə alimlər, tədqiqatçılar, müəllimlər və başqa sahələrin ziyalıları arasında beynəlxalq mədəni və intellektual əməkdaşlığı təmin etmək məqsədilə Millətlər Liqası nəzdində məsləhətçi orqan kimi təsis edilib. Anri Berqson, Albert Eynşteyn, Mariya Küri kimi dünya şöhrətli elm və incəsənət adamları adıçəkilən komitənin tanınmış simaları olmuşlar. Qurum 1946-cı ildən YUNESKO tərəfindən maliyyələşdirilir.

Müxtəliftipli layihələrin birgə planlaşdırılması, ekspertizası, həyata keçirilməsi və nəşri sahələrində səmərəli olan "İntellektual Liqa" çoxsəviyyəli əməkdaşlıq şəbəkəsidir.

***AMEA Naxçıvan Bölməsinin mətbuat xidməti***

**İtmişdir**

Məmmədova Gülparə Bəybala qızının adına olan evin 9339 inventar nömrəli texniki pasportu itdiyindən etibarsız sayılır.


**ŞƏRQ qapısı**

Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: *AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.*

*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *serqqapisi@nakhchivan.az*

Qeydiyyat №: 575

*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* Gülcamal Tahirova

*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*

Tiraj: 1500. Sifariş № 158